*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 8, 2025*
*Səh. 491-497*

https://doi.org/10.62837/2025.8.491

**UOT: 398:801.6**

**AYTƏN CƏFƏR QIZI CƏFƏROVA**
ceferli_ayten@mail.ru
*AMEA Naxçıvan Bölməsi*
*İncəsənət, Dil və Ədəbiyyat İnstitutu,*
*Folklorşünaslıq şöbəsinin müdiri,*
*filologiya üzrə fəlsəfə doktoru, dosent*
**ORCİD: 0000-0002-9547-3155**

# "ZAMAN-ZAMAN İÇİNDƏ" SİMVOLU VƏ QƏHRƏMANA AİD MİFİK ZAMAN FORMULLARI
## (Naxçıvan folklor mətnləri əsasında)

**Açar sözlər:** mifoloji zaman, zaman və məkan, nağıl mətni, xaos zamanı, kosmos zamanı

**Keywords:** mythological time, time and space, fairy tale text, time of chaos, space time

**Ключевые слова:** мифологическое время, время и пространство, сказочный текст, время хаоса, пространство-время

**Giriş.** Qədim mifoloji şüurun xüsusi səviyyəsi zaman kultudur. Zaman kultunun daşıyıcıları qədim dünya mifologiyasında təqvim tanrıları (Osiris, Dionis və s.), zamana məsul tanrılar, zamanla əlaqəli tanrılar (bir üzü keçmişə, digəri gələcəyə çevrilmiş Xronos və ya Yanus), ya da həyatın və insanın taleyindən məsul olan aşağı tanrılardır (Romalıların moiraları və s.).

Mifoloji zaman anlayışı haqqında daha aydın fikir ifadə etmək üçün nağıl mətnləri ən uyğun obyektdir. Bu zamanın mifoloji səviyyəsindən bəhs etmək üçün mütləq şəkildə onu ifadə edən simvolik rudimentləri müşahidə etmək gərəkdir. Bu anlayışların müxtəlif zamanlarda hansısa köklü məna daşıyıcıları olması mümkündür. Lakin mövcud durumda onlar öz əsl funksiyasını itirmiş, buna baxmayaraq, yaşayan anlayışlardır. Həm də yaşadığı obyekt də məhz nağıl mətnlərinin tərkibidir. Bu baxımdan, həmin anlayşıların nağıl mətni üçün də lazımi funksiya daşıdığı məlumdur. Əslində, belə anlayışlar "pişrov" da adlanır. Lakin pişrov funksiyasını tam daşımayan, zahirən pişrovlara bənzəyən, amma fərqli mövqedən nağıl mətni üçün önəm daşıyan anlayışların da bəlli dövrün tam formalı mətnləri, ən azı ifadələri olmasını demək mümkündür. "Biri var idi, biri yox idi", "Allahdan başqa heç kim yox idi", "keçmiş zamanlarda", "qədimlərdə" və s. bu kimi sabit nağıl formulları ilə yanaşı zamanın içində digər zamanı ifadə edən anlayışlar da

vardır. Bunlar, əvvəldə də qeyd edildiyi kimi, sabit formullara zahirən bənzəsə də, o deyildir. Nağıllarda qəhrəmanın taleyi ilə bağlı olub, onun gələcəyini müəyyən edən, onun gələcəyində müsbət və ya mənfi yöndən təsiri olan zaman da nağıl mətni üçün əsas kateqoriyadır. Bunlar "bir müddət", "üç saat vaxt", "üç gün sonra", "üç il sonra", "qırx gün", "iynəyarım yol" və s. kimi formullardır ki, qəhrəmanın sonrakı taleyinin açılmasına, çox zaman, bu formulların təyini olduğu anlayışlarla start verilir.

**Əsas hissə.** Naxçıvandan toplanılmış "Şahzadə Seyfəddin" (2, s.186) adlı nağıl mətnində qəhrəman öz real dünyasına bir müddət yol getdikdən sonra qovuşur. Həmin zaman ərzində getdiyi yol onu kosmosa doğru istiqamətləndirən yoldur. Və beləliklə, qəhrəmanın əsl həyatı məhz həmin bir müddət yol getdikdən sonra aydınlaşır: "Bunlar bir müddət yol gedəndən sonra qabaqlarına dəniz çıxdı. Gəmiyə minib yollarına davam elədilər. Dənizin ortasında bir tufan qopub gəmini parça-parça elədi. Gəmidəkilərin hamısı batdı. Bu oğlanlar üzmək bildiklərindən hərəsi bir taxta parçasının üstündə üzə-üzə ayrı yerlərə gəlib çıxdılar. Padşahın oğlu böyük bir şəhərə tuş gəlir. Gəlib padşahın sarayına çıxır. Padşah onu görüb bəyənir, yanına çağırır..." (2, s. 186). Məntdən göründüyü kimi, qəhrəmanın həyatının xaosdan qurtulub kosmosa qovuşmasında vasitəçi məhz mifik zaman – bir müddət gedilən yoldur.

Nağıl mətnlərində zamanla bağlı xarakterik məqamlardan biri də məhz zamanın saylarla ifadəsidir. Belə ki, Naxçıvandan toplanılmış mətnlərdə, əsasən, üç saat, üç gün, üç il, qırx gün və s. kimi zaman simvolları sakral mahiyyət daşıyaraq qəhrəmanın taleyinin müəyyənləşməsində əsas faktor kimi diqqət cəlb edir. Üç sayının, ümumiyyətlə, xaosla kosmos arasında mifoloji bağ funksiyası daşıdığı haqqında digər araşdırmalarda bəhs etmişik. Eləcə də üç sayının zamanı təyin etdiyində daşıdığı funksiya da xaos-kosmos arasında vasitədən ibarətdir. Üçlə təyin olunan zaman qəhrəmanın həm də təfəkkürünün formalaşmasında, ağıl, cəsarət, qabiliyyət qazanmasında müsbət rolu olan etnokosmik struktura malikdir. Qəhrəman xaosdan kosmosa keçid edir, bu ritual mexanizmi də bəlli zaman içərisində həyata keçirilir. Həmin zaman isə əsasən, üçün təyini olduğu zamanla baş verir. "Şahzadə Seyfəddin" (2, s. 186) mətnində qəhrəman xoas dünyasında olarkən oranın sahibi olan xaotik varlığın – divin gəlişinə məhz üç saat qaldığı haqqında məlumatı divin əsir saxladığı qızdan alır. Qız isə xaos aləmində olduğuna baxmayaraq o, kosmosa aiddir. Bu baxımdan, qəhrəman təkcə oradan sadə şəkildə qurtulmağı düşünmür, o həm də bu üç saat zaman müddətində xaotik varlığın – divin tilsimindən tamamilə və ağıllı yolla qurtulmağın yolunu arayır. Bu düşüncəni də məhz üç saat zaman müddətində əldə edir.

Qəhrəmanın axtardığı qızın üç gündən sonra tapılması da təyin olunan zamanın sakrallığından xəbər verir. Eləcə də Bədiyyə Camal xanımın da üç gündən sonra öz sevgisinə qovuşması zamanın kosmosla əlaqəsini bir daha təsdiqləyir.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 8, 2025*
*Səh. 491-497*

Nağıl mətnlərində qəhrəmanın kosmosa qovuşmaq yolunda keçid etdiyi xaos məkanında qarşılaşdığı çətinliklərlə mübarizəsi də məhz üç təyininin aid olduğu gün, ay, illə bağlı olur. Üç ildə qəhrəman yetkinləşir, təkmilləşir. Kosmosa qovuşanda isə sakral mahiyyət daşıyan zamanın yetirməsi olur. Çətin yola səfərə çıxan qəhrəmanın geriyə dönüb-dönməyəcəyi də məhz üç ilin tamamında məlum olur. Əgər qəhrəman geri qayıdırsa, onun qayıtdığı zaman və məkan kosmosla, əks halda isə xaosla bağlanır: "Ata, mən gedirəm, üç il gözləyin. Gəlsəm heç, gəlməsəm, mənə gətirdiyin qızı qara geydirib atasıgilə qaytar" (4, s.57).

Nağıllarda real zamanın içərisində qeyri-real zamandan da söhbət gedə bilir. Lakin ikinci, mövcud zaman nisbətində qeyri-realdır. O, keçmişdə real zaman statusunda idi. Qeyd edək ki, mifik zaman mifik məkanla birbaşa və sıx bağlı olduğundan onu, mövcud olduğu məkandan ayrı təhlil etmək mümkün deyildir. Odur ki, nağıllarda da qəhrəmanın xaosdan çıxıb kosmosa keçid etdikdən sonra düşdüyü məkan da məhz kosmos zamanı ilə bağlıdır. "Şahzadə Bəndalı" (4, s.56) adlı nağıl mətnində şahzadənin atası ilə dialoqu xaos zamanında və məkanında baş verir. Atasının gedib çıxdığı məkan və zaman isə kosmosla bağlıdır. Burada qəhrəman öz arzusuna qovuşur. Deməli, həmin zaman və məkan da qəhrəmanın gələcək taleyinə işıq saldığı üçün kosmosla bağlıdır: "Bəndalı deyir: - Ata, bu vilayətdən çıxıb gedərsən, qabağına bir ev çıxacaq. Evin iki mərtəbəsi olacaq, hər mərtəbədə də qırx otaq. Sən ikinci mərtəbəyə qalxarsan. Sonra orda gecələyib səhər açılan kimi üz qoyarsan səhraya. Çox gedəndən sonra çatacaqsan bir məmləkətə. Bu məmləkətin padşahının altı qızı var. Onları alıb gətirərsən (4, s.56). Burada xaosla bağlı olan halların baş verdiyi zaman da xaos zamanıdır. Yəni qəhrəmanın subay, işsiz olduğu zaman xaosa bağlıdır. Lakin qəhrəman ailə qurmaq arzusunda olarkən o, kosmosa doğru irəliləmiş olur. Və arzusu yolunda mövcud olduğu məkan və zaman da kosmosla əlaqəlidir.

Nağıl mətnlərində zamanın mifoloji səviyyəsi bir də mövcud zamanın içərisindəki irreal zamanın olması məqamıdır. Bu həm də süjetin içərisində süjet faktını xatırladır. Nağıl mətnində qəhrəmanın var olduğu zamanla yanaşı onun keşmişdə yaşadıqlarının aid olduğu zaman var. Bu, zamanın içərisində zaman formulasıdır. Daha aydın desək, bir hadisələrin cərəyan etdiyi real zaman, bir də ya keçmişdə baş verən, ya da gələcəkdə baş verə biləcək hadisələrə məxsus zaman. Bəzən nağıllarda qəhrəman başına gələnləri söyləyərkən keçmiş zamana – öz zamanının içərisindəki zamana geri dönür. Ya da öz zamanından gələcək zamana doğru istiqamətlənir. "Şah İsmayıl və qızıl balıq" adlı nağıl mətnində sehirli əşyaların: xəncərin, üzüyün, xalçanın, çırağın dil açıb keçmişdə baş verən hadisələri danışması real zamanın içərisindəki qeyri-real zamanı canlandırır. Burada süjet içərisində yeni süjetlər yaranır. Bu həm də zaman içərisində zaman formulasıdır.

**Qəhrəmana aid mifik zaman formulları.**

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 8, 2025*
*Səh. 491-497*

İlkin mifik zaman nağıllarda qəhrəmanın kosmos və xaosla bağlılığını göstərən zamandır. Lakin qəhrəmanla bağlı olan konkret zaman formulları, demək olar ki, yoxdur. Bununla yanaşı, zaman və qəhrəman münasibətləri haqqında mifik təfəkkürdən qaynaqlanan faktorlar mövcuddur. Bu faktorlar isə nağıl, əfsanə və digər mifoloji mətnlər tərkibində qorunur. Qəhrəmanlarla bağlı olan zamanı ifadə edən mifoloji fikirlər bunlardır:

Zamanın dövriliyi:

Bir çox mətnlərdə zaman ölüm və yenidən doğuluş, məhv və yaradılışın bir-birini izlədiyi dövri proses kimi təsvir edilir. Qəhrəmanlar çox vaxt bu dövrlərdə əsas rol oynayır, dünyaların yaradılmasında və ya məhv edilməsində iştirak edirlər. Məsələn, Zevs və digər Olimpiya tanrılarının mifləri zamanın dövriliyi və tanrıların nəsillərinin dəyişməsi ideyası ilə sıx bağlıdır.

Naxçıvandan toplanılmış "İki qardaş" (1, s.182) adlı nağıl mətnində uzaq səfərə çıxan iki qardaş aclıq və susuzluqdan tamamilə taqətdən düşdükləri bir vaxtda uca bir çinar ağacının altında yatan, başlarının da altında çoxlu çörəkləri olan adamları görürlər. İki qardaş hiylə işlədərək onları çinarın altından uzaqlaşdırır, çörəyi və suyu mənimsəyib həyatda qalmağa davam edir. Burada qardaşların gəlib çatdığı həmin çinar ağacının altı kosmik məkandır. Aclıq və susuzluğun onlara güc gəldiyi zaman isə həmin zamandır: "Günorta vaxtı gəlib bir çinarın yanına çatırlar...". Deməli, iki qardaşın aclıq və susuzluqdan – xaosdan qurtulduğu "günorta vaxtı" qəhrəmana aid olan mifik zamandır.

"Qardaşlar" (1, s.184) adlı nağıl mətnində də eyni süjet müşahidə olunur. Sənət arxasınca yola düşən üç qardaş uzun yol yorğunluğundan sonra bir ağacın altında dincəlməli olur. Onlar ağacın altında sərinləyib dincəldikləri zaman üç quldurun uzaqdan gəldiyini görürlər və o an ağacın başına çıxıb gizlənirlər. Ağacın altında qarət etdikləri qızılları bölüşdürən quldurları qardaşlar yuxarıdan daşla vurub öldürürlər və onların var-dövlətinə sahiblənirlər. Bu ağacın altındakı zaman da qəhrəmanlara – üç qardaşa aid zamandır. Çünki bura kosmos məkanıdır. Orada baş verənlər qardaşların gələcək taleyi üçün uyğun və xeyirlidir. Onların kasıblıqdan, işsizlikdən, yəni xaosdan qurtulmağına səbəbdir. Odur ki, ağacın altı kosmos məkanı, onların ağaca doğru qət etdikləri zaman məsafəsi, getdikləri yolun zamanı – "iynəyarım yol" kosmos zamanıdır.

Qəhrəmanların yaşı:

Bir çox mifoloji mətnlərdə dünyanın qüdrətli və nəcib varlıqlarının yaşadığı dövrü, zamanı "qızıl dövr", "qəhrəmanlar dövrü" adlandırmaq kimi faktlar da vardır. Qəhrəmanların yaşadığı dövr çox vaxt ideallaşdırılır və sonrakı dövrlərlə ziddiyyət təşkil edir. Belə mətnlərdəki qəhrəmanlar çox vaxt fövqəltəbii gücə malikdirlər və adi insanlar üçün əlçatmaz olan qəhrəmanlıqlar göstərirlər. Naxçıvandan toplanılmış "Quşpaşa" (1, s.193) nağıl mətnində qəhrəmanın öz sevgilisinə verdiyi beş günlük möhlət onun mifik zamanıdır. Eləcə də quş cildində olan oğlanın insan cildinə

düşdüyü, yəni xaosdan çıxıb kosmosa keçid etdiyi zaman ona aid olan mifik zamandır – kosmos zamanıdır.

Zaman ilahi iradənin təcəssümü kimi:

Bəzi nağıl mətnlərində zaman Yaradanın iradəsinin ifadəsi kimi qəbul edilir. Qəhrəmanlar Yaradan ilə bağlı ola bilir və onların hərəkətləri ilahi planı yerinə yetirməyə və ya şər qüvvələrə qarşı mübarizəyə yönəldilə bilir. "İynədan" (1, s.68) adlı nağıl mətnində də qəhrəmanın ilahi qüvvələrlə bağlı olduğu zaman onun dünyaya gəldiyi zamandır: "Vaxt o vaxt oldu ki, kiçik qızın şahzadədən bir qızı oldu. Qız yekəldi. Onu məktəbə qoydular. Bir gün məktəbə gedəndə qurban olduqlarımdan üç nəfəri dayəyə dedi ki, bu qızın anası onu bizə nəzir eliyib... Qurban olduqlarım qıza baxıb dedilər ki, gəlin onu dualıyaq. Onlar qızı dualıyandan sonra qız yeriyəndə ayağından qızıl-gümüş tökülür, güləndə gül açır, ağlayanda boran qopur..." (4, s.69). Burada qəhrəmanın – qızın hərəkət etdiyi zaman kosmos zamanıdır. Hərəkət etdiyi zaman ərzində Yaradanın iradəsi ilə əlaqəni təsdiq etdiyindən onun hər bir hərəkətinin zamanı kosmos zamanıdır.

Sınaq zamanı:

Nağıl mətnlərində əsas zaman qəhrəmanların sınaq zamanı hesab olunur. Onlar öz güclərini, müdrikliklərini və nəcibliklərini sübut etmək üçün müxtəlif çətinliklərdən, sınaqlardan keçməlidirlər. "Çalıb-çağıran ağac" adlı nağıl mətnində qəhrəman Məlik Cümşüdün ağac vasitəsilə kosmik statusa yetişməsinə məhz kosmik zamanı ifadə edən "sabahısı", "axşam düşəndə", "üçüncü gecə", "gecə ilə" zaman formulları yardım edir: "Sabahısı yenə də axşam düşəndə gedib ağacı bıçaqla vurur. Görür ki, camaat bu dəfə iki qat artır, onu axtarırlar ki, görsünlər kimdi bu ağaca əlini vuran. Üçüncü gecə yenə ağacı bıçaqla vurur. Bu dəfə heç kəs gəlmir. Gecə ilə ağacdan yığıb xurcununu doldurur..." (4, s.79).

Qəhrəmanların zamansızlığı:

Bəzi mətnlərdə qəhrəmanlar, sözün əsl mənasında, zamana tabe olmurlar. Onlar əbədi yaşaya, ölməz ola və ya göyə qalxa bilirlər. Bu, çox vaxt fövqəltəbii güclərə malik xaotik varlıqlara aid olur. "Göygöz kosa" (1, s.215) adlı nağıl mətnində də xaosla bağlı olan kosanın ölümsüzlüyünü qoruması üçün seçdiyi zamanlar xaos zamanıdır. O özü xaosla bağlı olduğundan onun əbədiliyinə xidmət edən zaman da xaosla birbaşa bağlı olur.

**Nəticə.** Beləliklə, mifologiyada konkret "zaman formulları" zəngin olmasa da, zaman haqqında təsəvvürlər qəhrəman obrazları və onların əməlləri ilə sıx bağlıdır. Mətnlərdə zaman çox vaxt qeyri-xətti, dövri, ilahi iradənin ifadəsi, qəhrəmanlar üçün sınaq və ya hətta zamansızlıqdır. Və bunlar qəhrəmanın taleyində ifadə etdiyi dəyərə əsasən kosmos və ya xaos zamanına ayrılaraq xarakterizə olunur. bu da öz növbəsində zamanın simvolikliyini təsdiq edir.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, ISSN 2224-9257*
*Filologiya məsələləri № 8, 2025*
*Səh. 491-497*

## ƏDƏBİYYAT:

1. Azərbaycan folkloru antologiyası. Naxçıvan folkloru. Bakı: Sabah,1994, 388 s.
2. Azərbaycan folkloru antologiyası. Naxçıvan folkloru antologiyası. II cild. Naxçıvan: Əcəmi, 2011, 496 s.
3. Azərbaycan folkloru antologiyası. XXIII say. Naxçıvan örnəkləri. II cild. Bakı: Elm və təhsil, 2012, 332 s.
4. Azərbaycan nağılları. Naxçıvan. I cild. Bakı: Nurlan, 2005, 296 s.

## Xülasə

Mifoloji şüuruda zamanın axını təbiət hadisələrinin müntəzəm növbəsi ilə paralel şəkildə dərk olunurdu: gecə və gündüz, yay və qış, doğum və ölüm - təbiət və bəşər aləmi arasında heç bir fərqin olmaması, insan varlığının fərqli qavranılmamasının nəticəsi idi. Tədricən təbii və kosmik proseslər zamanın dərk edilməsini tsiklik olaraq təyin etdi. Qədim insan dünyəvi zamanın axarını dayandıra bilmədiyi üçün tarixdən "imtina" etmək məcburiyyətində qaldı və bu, yalnız dövri proseslər zəminində həyata keçirilirdi. Yaradılışa qayıtmaq, əbədiyyətə qoşulmaq sülh, sabitlik və harmoniyaya nail olmaq demək idi. Beləliklə, zamanın tsiklik modeli müqəddəs temporal ideyalar üçün xarakterik və profan zaman xətti kimi qəbul edildi. Və bu da öz ifadəsini mifoloji təfəkkürdə tapdı. Mifoloji təfəkkürdə bəşəriyyətin ən əsas var olma faktoru olan zaman və məkan ikiliyi ilkin təsəvvürlərlə yanaşı yenilikçi faktları da qəbul edir və bu da ümumilikdə simvollar şəklində təzahür edirdi.

## "TIME-IN-TIME" SYMBOL AND MYTHICAL TIME FORMULAS RELATING TO THE HERO
## (Based on Nakhchivan folklore texts)

**Ayten Jafar gizi Jafarova**

In mythological consciousness, the flow of time was perceived in parallel with the regular succession of natural phenomena: night and day, summer and winter, birth and death - the absence of any difference between the world of nature and humanity was the result of the lack of a different perception of human existence. Gradually, natural and cosmic processes determined the perception of time as cyclical. Since ancient man could not stop the flow of secular time, he was forced to "reject" history, and this was carried out only on the basis of cyclical processes. Returning to creation, joining eternity meant achieving peace, stability and harmony. Thus, the cyclical model of time was perceived as a characteristic and profane

timeline for sacred temporal ideas. And this also found its expression in mythological thinking. In mythological thinking, the duality of time and space, which is the most basic factor of humanity's existence, accepts innovative facts along with initial ideas, and this was generally manifested in the form of symbols.

## СИМВОЛ «ВРЕМЯ-ВО-ВРЕМЕНИ» И МИФИЧЕСКИЕ ФОРМУЛЫ ВРЕМЕНИ, ОТНОСЯЩИЕСЯ К ГЕРОЮ
### (На основе нахчыванских фольклорных текстов)

**Айтен Джафар гызы Джафарова**

В мифологическом сознании течение времени воспринималось параллельно с закономерной сменой природных явлений: день и ночь, лето и зима, рождение и смерть – отсутствие какой-либо разницы между миром природы и человечеством было следствием отсутствия иного восприятия человеческого существования. Постепенно природные и космические процессы обусловили восприятие времени как цикличного. Поскольку древний человек не мог остановить течение мирского времени, он был вынужден «отвергнуть» историю, и это осуществлялось только на основе циклических процессов. Возвращение к творению, приобщение к вечности означало достижение мира, стабильности и гармонии. Таким образом, циклическая модель времени воспринималась как характерная и профанная временная шкала для сакральных временных представлений. И это также нашло своё выражение в мифологическом мышлении. В мифологическом мышлении дуализм времени и пространства, являющийся основополагающим фактором существования человечества, принимает инновационные факты наряду с первоначальными идеями, что, как правило, проявлялось в форме символов.

**Rəyçi: akademik Muxtar İmanov**